# STİVEN KİNQ

# KERRİ

Tərcüməçi:
Fəxrəddin Ağazadə

qanun nəşriyyatı

# STEPHEN KING

# CARRIE

Yeni İngiltərədə kiçik əyalət şəhəri bir anda "ölü şəhər"ə çevrilir. Küçələrdə meyitlər var, evlərin üstündən öldürücü alov şölələnir. Odlu Apokalipsisin bütün bu kabusu əcaib bir dul qadının yazıq, qorxmuş qızı olan Kerrinin işidir. Kerrinin daxilində uzun illər mürgüləyən telekinez istedadı bir gün oyanır və şəhərə ölüm gəlir.

**Stephen King** **CARRIE**
**Stiven Kinq** **KERRİ**
Bakı, Qanun Nəşriyyatı, 2024, 296 səh.

Janr: qorxu ədəbiyyatı, roman
Yaş qrupu: 18+
Ölçü: 130x200 mm
Cild: yumşaq
Çapa imzalandı: 08.10.2024

Naşir: Şahbaz Xuduoğlu
Tərcüməçi: Fəxrəddin Ağazadə
Redaktor: Dürdanə Ramazanlı
Korrektorlar: İradə İslamova, Səidə İsmayıl
Texniki redaktor: Əsəd Qaraqaplan
Mətn dizaynı: Ramin Əli
Qapaq dizaynı: Rafael Qasım

Qanun Nəşriyyatı
Bakı, AZ 1102, Tbilisi pr., 76
Tel: (+994 12) 431-16-62; 431-38-18
Mobil: (+994 55) 212 42 37
e-mail: info@qanun.az
www.qanun.az
www.fb.com/Qanunpublishing
www.instagram.com/Qanunpublishing

ISBN 978-9952-577-52-5

© Qanun Nəşriyyatı, 2024
Copyright © 1974 by Stephen King

Bu kitabın Azərbaycan dilinə tərcümə və yayım hüquqları
Qanun Nəşriyyatına məxsusdur. Kitabın təkrar və hissə-hissə nəşri
"Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında"
Azərbaycan Respublikasının Qanununa ziddir.

# BİRİNCİ HİSSƏ

## QANLI İDMAN

*"Enterprayz" həftəliyindən məlumat. Vestouver şəhəri (Men ştatı), 19 avqust 1966-cı il.*

DAŞ DOLU

Dərhal bir neçə şahid təsdiq etdi ki, Çemberlen şəhərinin Karlin küçəsində tamamilə aydın, buludsuz havada daş dolu yağmağa başladı. Dolular, əsasən, Missis Marqaret Vaytın evinə düşürdü. Dam iki su axan navalça və su borusu xeyli dərəcədə zədələnmişdi. Dəymiş ziyan təxminən 25 dollar hüdudunda qiymətləndirilirdi. Missis Vayt dul qadındır, Keritta adlı üçyaşlı qızı ilə yaşayır. Missis Vaytın özü müsahibə verməkdən imtina etdi.

Bu qeyri-adi təbiət hadisəsi baş verən zaman, ümumiyyətlə, heç kim, daxilən olsa da, pis hisslərin yetişə biləcəyinə və öz anını gözlədiyinə şüuraltı səviyyədə belə, təəccüblənmədi. O zaman duşxanada olan bütün qızlar zahirən özlərini müxtəlif tərzdə apardılar; baş verən hadisə kimisə dəhşətə gətirdi, kimisə utandırdı, kimdəsə ruhi sarsıntı yaratdı, bəziləri isə sadəcə sevindilər ki, bu rəzil Kerri Vayt yenə də payını aldı. Bəziləri hətta sonradan

bu hadisənin onlar üçün sürpriz olduğunu iddia etmişdi, lakin, şübhəsiz, onlar yalan danışırdılar. Bəzi qızlarla Kerri məktəbə elə birinci sinifdən getmişdi və bütün bu illər ərzində yaranan münaqişənin cücərtiləri yavaş-yavaş və qaçılmaz şəkildə insan təbiətinin qanunlarına – bir növ radiaktiv materialın kritik kütləsində baş verən zəncirvari reaksiya kimi – tam uyğun olaraq güclənmişdi.

Əlbəttə, onlardan heç kim bilmirdi ki, Kerri Vayt telekinetik qabiliyyətlərə[1] malikdir.

Çemberlen şəhərinin Barker küçəsində yerləşən ibtidai məktəb stolunda dırnaqla cızılmış yazı:

*Kerri Vayt pox yeyir.*

Paltar geyinmə otağı qışqırıqla, çoxlu cingiltili səsin əks-sədası və kafel döşəməyə düşən su şappıltısının səsi ilə dolmuşdu. Birinci dərsdə qızlar voleybol oynamışdılar, onların səhər təri yüngül və təzə idi.

Onlar isti su şırnaqları altında uzanaraq əyilir, zaman-zaman sürüşkən sabunun ağ parçalarını bir əllərindən digərinə sıxaraq qışqırır və ətrafa sıçradırdılar. Kerri bu qarışıqlığın ortasında sanki qu quşları arasında qalan qurbağa kimi, demək olar ki, hərəkətsiz dayanmışdı. Kifayət qədər böyük, bir qədər yöndəmsiz, boynunda, kürəyində və ombasında sızanaqlar, qeyri-iradi şəkildə üzünün kənarlarına yapışan yaş, rəngsiz saçlar. Kerri başını irəli

[1] Telekinetik qabiliyyət parapsixologiya terminidir, insanın yalnız düşüncəsi ilə fiziki obyektlərə təsir göstərmək qabiliyyətini ifadə edir – tərc. qeydi

əyərək sadəcə onun dərisini döyəcləyən və aşağı axan su şırnağı altında dayanmışdı. Görünüşünə görə “qapazaltı” roluna ideal namizəd, daimi istehza, əbədi uğursuzluq obyekti idi. Əslində, o, həyatda da belə olub. “Niyə burada da, Andover məktəbində və ya Boksford məktəbində olduğu kimi, ayrıca kabinələr yoxdur? – Kerri təəssüflə düşündü. – Axı qızlar həmişə baxırlar. Yox, onlar, sadəcə, gözlərini zilləyirlər”.

Kranlar bir-birinin ardınca bağlanır, qızlar onların altından çıxır, incə rəngli çimərlik papaqlarını soyunur, qurulanır və üzərilərinə dezodorant səpir, arabir qapının üstündəki saata nəzər salırlar. Büstqalterlərin düymələri çıqqıldayır, ayaqdan-ayağa keçirərək qızlar qısa tumanlarını yuxarı dartırlar. Havada buxar, demək olar ki, Misir hamamlarında olduğu kimi asılmışdır, bu illüziyanı yalnız küncdə güclü axar suyu olan kiçik bir hovuz pozur.

Nidalar və qışqırıqlar sanki güclü zərbədən sonra bilyard şarları kimi, bütün divarlarda əks olunaraq otaqda uçurlar.

– ... Tommi deyir ki, bunu geyinəndə sadəcə nifrət edirəm...

– ... Mən bacım və onun əri ilə gedirəm. O, düzdür, burnunu eşir, amma bacım da bunu edir, ona görə də bir-birinə...

– ... Məktəbdən sonra duş qəbul etmək və...

– ... Bəlli oldu ki, o da Sindi ilə mənim kimi, xəsisdir...

Onların boy-buxunlu, lakin, demək olar ki, düzqamətli bədən tərbiyəsi müəllimi Miss Dejardin paltar geyinmə

otağına daxil oldu, otağa nəzər saldı və sərt şəkildə əllərini şappıldatdı.

– Kerri, nəyi gözləyirsən? İkinci gəlişi? Beş dəqiqədən sonra zəng çalınacaq!

Onun əynində gözqamaşdırıcı ağ idman tumanı var idi; ayaqları, ola bilsin, ideal deyildi, lakin əzələli olduğundan baxışları cəlb edirdi. Müəllimin sinəsində gümüş fit asılmışdı. Bu, hələ kollecdə olarkən qazanılan oxatma yarışlarında qələbəyə görə verilən mükafat idi.

Qızlar istehza ilə güldülər və Kerri yavaş-yavaş, sanki yarıyuxulu kimi axan qaynar suyun davamlı gurultusu altında onu ələ keçirmiş çaşqınlıqdan qurtulub yuxarı baxdı.

– B-r-r-a?

Səs bir növ ya civilti, ya da qurbağa qurultusuna bənzər şəkildə qəribə alındı, hamı sanki bunu gözləyirmiş kimi, yenidən qəhqəhə ilə gülüşdü. Syu Snell dəsmalı başından çıxardı,səhnədəki sehrbaz kimi yellədi, tez saçlarını daramağa girişdi. Miss Dejardin əsəbi halda Kerri tərəfə əlini yellədi və çıxdı.

Kerri suyu bağladı. Yuxarıdan son damcılar düşdü və kranda qısaca quruldadı. O öz şkafına doğru addımladı və yalnız burada hamı gördü ki, onun ayağından qan axır.

"Partlamış kölgə: real faktlar və Kerietta Vaytın hekayətinə dair nəticələr", Devid R. Konqres (Tulon Universiteti nəşri, 1981), c.34:

Şübhəsiz, Kerietta Vaytın telekinetik qabiliyyətinin erkən yaşda sezilməyən konkret təzahürləri Vayt və Stirnenin "Telekinez: coşqun istedada qayıdış" adlı hesabat-

larında irəli sürdükləri nəticə ilə izah edilə bilər, yəni bu düşüncə səyi ilə cisimləri hərəkət etdirmək qabiliyyəti yalnız həddindən artıq psixi gərginliklə əlaqəli vəziyyətlərdə özünü göstərir. Axı istedad, əslində, bir qayda olaraq, kənar gözlərdən etibarlı şəkildə gizlənir. Əks halda, bu qabiliyyətin təzahürləri neçə əsrlər boyu şarlatanizm dənizinin üzərində yalnız kiçik bir hissəsi ilə görünən aysberqə bənzər şəkildə tədqiqatçıların nəzərindən kənarda qala bilərdi?

Bu halda bizim ixtiyarımızda sadəcə bəzən şayiələrə bənzəyən fraqmentar məlumatlar var ki, hətta bu da Kerri Vaytın malik olduğu nəhəng TK-potensialı barədə nəticə çıxarmaq üçün yetərlidir. Faciə ondan ibarətdir ki, hamımız artıq gecikmişik...

– Aybaşı!

İlk olaraq Kris Hargensen qışqırdı. Söz kafel divarlara zərbə kimi dəyərək bir göz qırpımında əks-səda verdi və yenidən geri qayıtdı. Syu Snell gülməli tərzdə fınxırdı, qəlbində qəribə, narahat ədavət, nifrət, qıcıqlanma və yazıqlıq hissi yarandı. Nə baş verdiyinin fərqində olmayan Kerri bax belə dayandığı müddətdə təəccüblü dərəcədə axmaq görünürdü. İlahi, düşünmək olardı ki, onda bu hal heç vaxt olmayıbmış...

– AYBAŞI!

İndi artıq sanki sehrlənmiş kimi, xorla qışqırırdılar. Sonra soyunub-geyinmə otağının digər ucunda kimsə (ola bilsin, yenə də Hargensendir, amma Syu qarışıq səslər və